Təhsil millətin gələcəyidir

Bilik bayramı qeyd olundu

Qəbələdə təhsilə elmə maraq həmişə yüksək olub. Hər bir valideyn arzu edir ki, onun övladı oxuyub elmlərə yiyələnsin, xalq üçün, vətəni üçün, ailəsi üçün layiqli bir övlad, layiqli bir vətəndaş olsun. Ənənəvi olaraq 2017—2018-ci dərs ilinə də Qəbələ təhsil işçiləri əvvəlki illərdə nail olduqları öncül yerləri əldə saxlamaq əzmi ilə başlayırlar.

Dərs ilinin nəticələrinə görə 1351 nəfər ümumi təhsil kursu üzrə attestat, o cümlədən 31 nəfər fərqlənmə attestatı, 1277 nəfər isə tam orta təhsil kursu üzrə attestat almışdır ki, onlardan 3 nəfəri qızıl, 1 nəfəri gümüş medala layiq görülmüş, 30 nəfəri isə fərqlənmə attestatı almışdır.

Keçən dərs ilində rayon məktəblərinin 7 nəfər şagirdi fənn olimpiadalarında fərqləndirici yerləri tutmuş 1 nəfər qızıl, 3 nəfər gümüş 3 nəfər bürünc medala layiq görülmüşdür.

Azərbaycanın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr olunmuş ən yaxşı təqdimat müsabiqəsində Qəbələ şəhər 4 saylı, məktəbin X sinif şagirdi Quluyeva Dünya Şamil qızı Təhsil Nazirliyi tərəfindən tərifnamə ilə təltif olunmuşdur.

Ötən dərs ilində rayon təhsil sistemində ən yadda qalan hadisələrdən biri də müəllimlərin diaqnostik qiymətləndirilmədən keçməsidir.

Diaqnostik qiymətləndirmədə rayon ümumtəhsil məktəblərindən 2130 nəfər müəllim iştirak etmişdir.

Ümumtəhsil məktəblərində təlimin keyfiyyətinin yüksək olmasını təsdiq edən əsas amil sözsüz ki, məzunlarının ali və orta ixtisas təhsili müəssisələrinə daxil olma səviyyələri ilə ölçülür. 2016-2017-ci dərs ilini başa vuran məzunlardan 527 nəfəri tələbə adını qazanmışdır.

Məzunları yüksək bal toplayaraq ali məktəblərə qəbul olunan məktəblər sırasında Qəbələ şəhər məktəblərinin, Vəndam qəsəbə 1 və 2 nömrəli, Bum qəsəbə, Tüntül, Mıxlıqovaq, Hacıalılı, Soltan Nuxa, Əmirvan, Nohurqışlaq, Bunud, Həmzəli, Məlikli, Dizaxlı, Yemişanlı kənd tam orta məktəblərinin adını iftixarla çəkmək olar.

Bəli, ümumtəhsil məktəbləri Bilik gününü keçən dərs ilinin uğurları fonunda qarşılayırdılar.

Saat 10-da şəhər, qəsəbə və kənd məktəblərinin hamısında yeni dərs ili və Bilik günü münasibətilə təntənəli tədirlər başlandı. Məktəb rəhbərləri bayram tədbirini açaraq dərs ilinin başlanması və Bilik günü münasibətilə müəllimləri, şagirdləri, valideynləri təbrik etdilər. Azərbaycanın Dövlət Himninin əzəmətli melodiyası dinlənildikdən sonra çıxış edən müəllimlər, valideynlər yeni dərs ilində məktəb kollektivlərinə müvəffəqiyyət arzuladılar.

Şagirdlərin söylədikləri şeirlər, ifa etdikləri mahnı və rəqslər alqışlarla qarşılandı. İlk zəng çalındı. İlk öncə birincilər kövrək addımlarla, müəllimlərin müşayiəti ilə dərs otaqlarına getdilər. Vaxt keçəcək bu kövrək addımlı balacalar inamlı addımlarla məktəbi bitirib müstəqil həyata atılacaqlar.

Bütün məktəblərdə ilk dərs «Cocuq Mərcanlıya qayıdış» mövzusuna həsr olundu.

İlk dərs günü

Nic qəsəbə 3 nömrəli tam orta məktəbində

Bilik günü rayonun qəsəbə və kənd məktəblərində də təntənə ilə qeyd olundu. Nic qəsəbə 3 nömrəli məktəbin direktoru Elton Məmmədov Bilik günü tədbirini açıq elan etdi. Dövlət himni səsləndi. Qəsəbə icra nümayəndəsi İbrahim Məmmədov məktəb kollektivini, şagirdləri valideynləri təbrik etdi. Şagirdlər Bilik gününə, məktəbə, Vətənə aid şeirlər söylədilər.

Əhməd MƏMMƏDLİ,
«Qəbələ»nin müxbir postunun rəhbəri.

Bum qəsəbə tam orta məktəbində

Bilik günündə bu təhsil ocağında da böyük bayram əhval-ruhiyyəsi vardı. Bayram mərasimi Azərbaycanın Dövlət Himninin səslənməsi ilə başladı. Vətənin ərazi bütövlüyü uğrunda şəhid olanların ruhu bir dəqiqəlik sükutla yad edildi. Məktəbin direktoru Məlahət Dadaşova keçən dərs ilində əldə edilmiş uğurlar barədə məlumat verdi. Məktəbin məzunlarından 16 nəfəri ali məktəblərə qəbul olunduğunu qeyd etdi. Məktəb müəllimləri, valideynlər çıxış edərək ürək sözlərini söylədilər. Yeni dərs ilinin başlanması və bilik günü münasibətilə müəllimləri, şagirdləri, valideynləri təbrik etdilər.

Şagirdlər Vətənə, məktəbə, müəllimə hərs olunmuş şeirlər söylədilər.

Uludaş kənd tam orta məktəbində

Dövlət himni səsləndikdən sonra məktəbin direktoru Sadəddin Eldarov keçən dərs ilinin nəticələrindən danışdı. Məzunlardan 6 nəfərin ali məktəb tələbəsi adını qazandığını bildirdi.

Uludaş kənd icra nümayəndəsi İkram Nəbiyev, müəllimləri və valideynləri Bilik günü və yeni dərs ilinin başlanması münasibətilə təbrik etdi. İlk zəng çalındı.

Qəbələ Peşə Məktəbində

Bütün təhsil ocaqlarında olduğu kimi Qəbələ Peşə Məktəbində də yeni dərs ilinin başlanması və Bilik günü münasibətilə təntənəli tədbir keçirildi. Məktəbin direktoru Azad Məmmədov bildirdi ki, son illər ölkə rəhbərliyinin kənd təsərrüfatının daha da inkişaf etdirilməsi üçün gördüyü tədbrlər aqrar sektorun bacarıqlı, ixtisaslı işçilərlə təmin edilməsini tələb edir. Bu sahədə bizim məktəbin üzərinə böyük vəzifə düşür. Keçən il məktəbimizi kənd təsərrüfatının müxtəlif sahələri üzrə 150 nəfər ixtisaslı kadr bitirib. Bu dərs ilində isə 300 nəfər şagirdlə işə başlayırıq.

Çıxış edənlər yeni dərs ilində məktəb kollektivinə, şagirdlərə uğurlar arzuladılar.

Qeyd etmək lazımdır ki, Qəbələ Peşə Məktəbi üçün ən müasir avadanlıqlarla, texniki vasitələrlə təmin olunmuş yeni tədris korpusu tikilib. Qısa müddətdən sonra kollektiv litsey statuslu Qəbələ Peşə Mərkəzi adlanan həmin korpusda təhsil və təlimlərini davam etdirəcəklər.

Emin ƏDİLLİ,
«Qəbələ»nin müxbir postunun rəhbəri.

Açılış mərasimi keçirildi

Sentyabrın 20-də Aydınqışlaq kənd tam orta məktəbinin bütünlüklə yenilənmiş- demək olar ki, yenidən tikilmiş binasının açılış mərasimi keçirildi.

Mərasimi giriş sözü ilə Qəbələ Rayon Təhsil Şöbəsi müdirinin əvəzi Yaşar Nəzirov açdı. Dövlət himni səsləndikdən sonra Qəbələ Rayon İcra Hakimiyyəti başçısının müavini Ətayə Osmanova Respublika Ağsaqqallar Şurasının sədri, millət vəkili Fətah Heydərovun, Qəbələ Rayon İcra hakimiyyətinin başçısı Səbuhi Abdullayevin təbriklərini məktəb kollektivinə, valideynlərə çatdırdı. Məktəb kollektivini, şagirdləri valideynləri məktəbin açılışı münasibətilə təbrik etdi. Məktəbin bütünlüklə yenilənməsinə görə ölkə Prezidenti cənab İlham Əliyevə, Təhsil Nazirliyinə, rayon icra hakimiyyətinə təşəkkürünü bildirdi.

Kənd ağsaqqalı Aləddin İsgəndərov kənd camaatı adından məktəbin təmirində rolu olan bütün təşkilatlara və şəxslərə təşəkkür etdi.

«Tac-2014» MMC-nin nümayəndəsi Mirsahib Bayramov onların işinə verilən qiymətə görə çıxış edənlərə və məktəb kollektivinə minnətdarlığını bildirdi.

Azərbaycan Respublikası Təhsil Nazirliyinin məsul işçisi Cəsarət Valehov Təhsil naziri Mikayıl Cabbarovun təbrikini məktəb kollektivinə çatdırdı. Kənd camaatını təbrik etdi. Cəsarət Valehov bildirdi ki, Təhsil Nazirliyi məktəbin açılışı münasibətilə təhsil ocağına 7 ədəd kompüter hədiyyə edib.

Məktəbin direktoru Sevil Nəbiyeva çıxış edərək məktəb kollektivinin, valideynlərin minnətdarlıqlarını məktəbin yenidənqurulmasında rolu olan hər kəsə çatdırdı.

Açılış lenti kəsildi, siniflərə baxış keçirildi.

Açılış mərasimində Təhsil Nazirliyinin umumtəhsil sektorunun müdiri Firudin Həmzəyev, əsaslı tikinti və təchizat ildarəsinin rəis müavni Fərhan Əliyev, 4 saylı Regional Maliyyə Hesablaşma İdarəsinin rəis müavini Sadiq İbrahimov iştirak edirdi.

Qeyd edək ki, həmin gün Cığatelli və Seyidqışlaq kənd tam orta məktəblərində quraşdırılmış hər biri 8 otaqdan ibarət modul tipli məktəblərində də açılışı olmuşdur.

Səhifəni Qüdrət Səmədov hazırlamışdır.
Fotolar Səhrab Umuyevindir
«Qəbələ»